**Sumqayıtda fəaliyyət göstərən kafedə aşkarlanan nöqsanlara dair məlumat**

**(2 aprel 2025)**

Sumqayıt şəhəri, 5-ci mikrorayon, N.Nərimanov küçəsi 36 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Rəhimov Səxavət İmran oğluna məxsus “Dostluq” kafesində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən yoxlama keçirilib.

Baxış zamanı ictimai iaşə müəssisəsində sanitar-gigiyenik və sanitar-texniki vəziyyətin qənaətbəxş olmadığı, məhsulların saxlanması zamanı temperatur rejiminə əməl edilmədiyi, işçi heyətin tibbi müayinədən keçmədiyi və digər nöqsanlar müəyyən olunub. Həmçinin soyuducuda etiketlənməsi aparılmayan qida məhsulları aşkarlanıb.

Faktla bağlı iaşə müəssisəsinin fəaliyyətinə nöqsanlar aradan qaldırılanadək müvəqqəti məhdudiyyət qoyulub, rəhbəri  barəsində inzibati qərar qəbul edilərək cərimə tətbiq edilib və qanunvericiliyə uyğun zəruri tədbirlər görülüb.